

# Duyğu yarpaqları



## Yeni il gəlir

*Böyüklər, kiçiklər- hamı sevinir,*
*Yurdumda şadlıq var-yolka bəzənir,*
*Yaş üstə yaş gəlir, il təzələnir,*
*Azad Vətənimə yeni il gəlir!*
*Yolkalar bəzənir çöldə, bayırda,*
*Şənlik başlayıbdır eldə, obada,*
*Şaxta baba pay gətirib torbada,*
*Azad Vətənimə yeni il gəlir!*
*Yeni il şaxtalı, həm qarlı olsun,*
*Yazı da çiçəkdən qoy varlı olsun,*
*Yayı, payızı da bol barlı olsun,*
*Azad Vətənimə yeni il gəlir!*
*Qoy təzə il hər insana yar olsun,*
*Vətən mülkü düşmənlərə dar olsun,*
*Xoşbəxtliyim bu dünyaya car olsun,*
*Azad Vətənimə yeni il gəlir!*

**Emin BARATOĞLU,**
**AYB-nin üzvü.**

## Qəbələ

Dəyişib görkəmini olub gülüstan Qəbələ,
Hüsnünü seyr eləsə, zövq alar insan, Qəbələ.
Büsbütün səliqə-sahmanlıdır yollar, küçələr
Bəzənib gəlin kimi hər tərəf, hər yan, Qəbələ.
Yaraşıq verir sənə dəbdəbəli otellərin
Hər qonaq qarşılanır burda mehriban, Qəbələ
Təptəzə mösüzədir «Yeddi gözəl» şəlaləsi
«Şonqar»ın buzlu suyu ruha verir can, Qəbələ
Yaradıblar qucağında neçə əyləncə yeri
Səni məşhur eləyib indiki dövran, Qəbələ
Ən ağır xəstələri sağ eləyir «İstisu»yun
Mənbəyi Yengicədir, bir də Qəmərvan, Qəbələ
Qırmızı kitabdadır «Qızıl-Əhmədi» alması
Yeyəndə zəngin olur bədəndəki qan, Qəbələ
Dərdlərə verir şəfa, «Nar» armudun, «Çil» üzümün
Çoxları burda tapıb dərdinə dərman, Qəbələ
Şabalıdlı plovun ətrinə, əsla yox əvəz
Çay ilə qoz halvası dadlıdır hər an, Qəbələ
Xalqımın getdiyi yol, indi tərəqqi yoludur,
Yüksəlib, yaxşılaşıb xeyli güzəran, Qəbələ.
Yurdumun bu gün adı, şöhrəti dillərdə gəzir
Qoy var olsun anamız Azərbaycan, Qəbələ.

**Fəryaz HƏMİDOV.**

## Bu baxış nə baxışdı

Səhər doğan günəştək
Çox nurludu üzləri
Zirvədə bəyaz qardı,
Qəbələ gözəlləri.
Yanağının rəngini
Qızıl güldən alıbdır,
Gözlərinin rəngini
«Nohur göl»dən alıbdır.
Qulac-qulac saçları
Türyançay tək uzanır,
Cöhrəsinə baxıram,
Həyasından qızarır.
O gözlərə heyranam,
Bu baxış nə baxışdı?
Durca xalçasındakı
İlmələrdi, naxışdı.
Aşiqini ovsunlar,
Saf baxışlı gözləri,
Qafqaza yaraşıqdı,
Qəbələ gözəlləri.

**Mərziyyə.**



## Təzə il

Dolanıb on iki ay
Şaxta baba salıb hay,
Gətirib hədiyyə, pay.
Sən də eşit, bil, gəlir,
Bizə təzə il gəlir.
Qar yağır ağır-ağır,
Çöldə oyun, çal-çağır,
Üzlərdən sevinc yağır,
Nəğmə deyən dil gəlir,
Bizə təzə il gəlir.
Tanımır sərhəd- yağır,
Baxmır şəhər, kənd-yağır,
Göydən bərəkət yağır.
Keçir Muğan -Mil gəlir,
Bizə təzə il gəlir.
Ağacdələn işləyir,
Dimdiyini şişləyir,
Meşəni təftişləyir.
Çalınır təbil, gəlir,
Bizə təzə il gəlir.
Yedirməkçün hamını,
Örtüb ağ yorğanını,
Yer qoruyur canını.
Şaxtalı fəsil gəlir,
Bizə təzə il gəlir.

**Əhməd MƏMMƏDLİ.**

## Cana qayıdış

**(Aprel döyüşlərində vuruşan əsgərlərin şərəfinə)**

Mənim xilaskarım, qəhrəman əsgər,
Göstərdin hər kəsə nədirsə hünər,
Canıma, ruhuma sən verdin təpər,
Aldığın hər qarış torpaqla barış,
Qəhrəman orduma, əsgərə alqış.
Bu ötən illərdə yaralı hər kəs,
Haqlı-haqqımıza verilmədi səs,
Bizə gərək deyil böylə ataşkəs,
Mütləq alınmalı torpaq, hər qarış,
Qəhrəman orduma, əsgərə alqış.
Təmizlə vətəndən murdar izləri,
Qatlansın düşmənin böylə dizləri,
Güldür ağrı, acılı üzləri
Sevincdən göz yaşı olsun bir yağış,
Qəhrəman orduma, əsgərə alqış.
Qaytar Xankəndin, Şuşanı, hər yanı,
Dünyaya car edib Azərbaycanı,
Millətin, hər kəsin şərəfi, şanı,
Bəzən tanınırdı dünyada yanlış,
Qəhrəman orduma, əsgərə alqış,
Nədən durdun, susdun, haydı, irəli!
Unutdur ağrılı, acılı ötən illəri,
Qələbə qaytarar, mən edər məni,
Komandan edəydi böylə çağırış,
Qəhrəman orduma, əsgərə alqış.

**Həsənağa KƏDƏRLİ.**

## Ata ocağı

Mənimçün müqəddəs, mənimçün əziz,
Sonsuz bir dəryadır, ümman bir dəniz,
Hər zaman orada vurur qəlbimiz,
Mənim varlığımdır ata ocağı.
Burada atamın ayaq izləri,
Sanki ölməyibdir baxır gözləri,
Yadımdan çıxmayır şirin sözləri,
Mənim varlığımdır ata ocağı,
Bu ocaq həmişə çəkib aparır,
Məni varlığımdan yaman qoparır,
Ruhu başım üstə gəlib fırlanır,
Mənim varlığımdır ata ocağı.
Atamı, anamı gözüm axtarır,
Gözümdə yaş donur, qəlbim bulanır,
Bu ocaq sönməzdir həmişə yanır,
Mənim varlığımdır ata ocağı.
Uşaqlıq illərin xatırlayıram,
Özümü yenə də körpə sayıram,
Körpə uşaq kimi doluxsunuram,
Mənim varlığımdır ata ocağı.
Burada dünyaya mən göz açmışam,
Burada oxuyub təhsil almışam,
Ən şirin günlərlə qarşılaşmışam,
Mənim varlığımdır ata ocağı.

**Zenfira CƏFƏROVA.**

## Dana bilmirəm

*Mən səni sevmişəm, dana bilmirəm,*
*Silib xatirəndən atsan da məni,*
*Qovrulub, od tutub yana bilmirəm,*
*Qaynar ocaq kimi çatsan da məni.*
*Sevgini özümlə gəzdirəcəyəm,*
*Mən aylı, ulduzlu, sirli gecəyəm,*
*Səni düşünmə ki, bezdirəcəyəm,*
*Gülüm, başqasına satsan da məni.*
*Sən məndən aralı, mən səndən uzaq,*
*Nə qıvrım saç qalıb, nə cibdə daraq,*
*Nə mən pərvanəyəm, nə də sən çıraq,*
*Şəkər yuxulara qatsan da məni,*
*Səni unutmuşam, söylər bu dilim,*
*Söyləsə çox günah eylər bu dilim,*
*Axtarma sən məni, axtarma gülüm,*
*Nə fayda axtarıb tapsan da məni.*

**Şahid NƏĞMƏKAR.**

## Sevgi yağışı

Tənhalaşıb dərdə-qəmə batmayın,
Özünüzü oda, gözə atmayın,
Bu yağan yağışa çətir tutmayın,
Bu yağan yağışda, sevgi ətri var,
Dərbəndə, Təbrizə, Laçına yağsın,
Göyçənin, Murovun saçına yağsın,
Açın ovcunuzun içinə yağsın,
Bu yağan yağışda, sevgi ətri var.,
Qızıl gözəllikdi, dürr gözəllikdi,
Varsa gözəllikdə, sirr gözəllikdi,
Hər düşən damcısı bir gözəllikdi,
Bu yağan yağışda, sevgi ətri var.
Nə hava dəyişsin, nə günəş çıxsın,
Nə zaman tələssin, nə ömür axsın,
Yağsın səhərədək, kaş elə yağsın...
Bu yağan yağışda, sevgi ətri var.

**Qoşqar QARAÇAYLI.**



## Gözəl yarım

Səni gözlərimin nuru eyləsəm,
Sevirəm sözünü sənə söyləsəm,
Çarəsizəm, bilmirəm ki, neyləsəm,
Məni sevərsənmi ay gözəl yarım?
* * *
Dolansam sağına həm də soluna,
Düzsəm gül-çiçəklər gələn yoluna,
Çevrilsəm sevgivin daim quluna,
Məni sevərsənmi ay gözəl yarım?
* * *
Sənli xəyalların xülya olmasın,
Təki gözüm həsrətinlə dolmasın,
Tanrım səni məndən ayrı salmasın,
Məni sevərsənmi ay gözəl yarım?
* * *
Mənə gözlərindir bir ümid verən,
Bu yanan qəlbimə suları səpən.
Məndən başqa varmı belə sevən?
Nazlanma gəl mənə ay gözəl yarım.
* * *
Mənim üçün oldun ümid çırağı,
Nə olar söndürmə yanan ocağı
Yox desən qəlbimə çəkərsən dağı
Məni sevərsənmi ay gözəl yarım?

**Günel TAPDIQQIZI.**



## Qocalıq

Ondan uzaq olmaq istəsəm də mən,
Axtarıb tez tapdı məni qocalıq.
Səssizcə bir günü döyüb qapını,
Məni yaman günə saldı qocalıq.
* * *
Dedim ki, gözlərim görməsin səni,
Mənə gəlmə yaxın, get tap özgəni,
Lakin çox asanca tutdu o, məni,
Bir anlıq xəyala daldı qocalıq.
* * *
Dil tökdüm, yalvardım, elə bil kardı,
Elə bil ki, mənə aşiqdi, yardı,
Doğrudan da onda sədaqət vardı,
Mənimlə ömürlük qaldı qocalıq.

**Mirhəsən AĞAYEV**

## Vaxtım olmayacaq

Mənə məzar qazın mənim özümdə,
Məni dəfn etməyin torpağa bir də,
Qoymayın ki, arzum qalsın gözümdə,
Vaxtım olmayacaq ölməyə bir də,
* * *
Daşdan düzəltməyin başdaşımı da,
Öz başım özümə başdaşım olsun.
Təbii sularla yumayın məni,
Suyum axıtdığım göz yaşım olsun.
* * *
Mənə məzar qazın mənim özümdə,
Baxım öz ölümə, baxım ağlayım.
Yıxılım özüm öz cənazəm üstə,
Özümə özümdə matəm saxlayım.

**Laçın YANARDAĞ.**



## Öz qismətindir

*Dedim ki, küskünəm öz həyatımdan,*
*Dedilər, öz bəxtin, öz qismətindir.*
*Dedimm ki, mən yanan ocaq istərəm,*
*Dedilər, bu kiçik köz qismətindir.*

*Dedim ki, at üstə qoçu olaydım,*
*Ya bağban, ya da ki, suçu olaydım,*
*Ya da məhəbbətin qulu olaydım,*
*Dedilər şairsən, söz qismətindir.*

*Dedilər, qoruyum bu kiçik közü,*
*Yoxsa itirərəm mən şeiri, sözü,*
*Dedim sevincimin kor olub gözü,*
*Dedilər, tutulmuş göz qismətindir.*

*Dedim ki, mən yoxam belə oyunda,*
*Hey keçi hayında, qoyun hayında,*
*Nə qədər mən olum, axı qoyunda,*
*Dedilər, ay Küskün, döz, qismətindir.*

**İlham KÜSKÜN.**

## Yadıma düşüb

*Soruşsan ey könül, nədən qəmliyəm,*
*Vətənim, ellərim yadıma düşüb.*
*Şirin həyatımla mehriban yarım,*
*Əziz balalarım yadıma düşüb.*
*Mən könül arzulu,ürək dağlıyam,*
*Doğma Qəbələnin dağlar oğluyam,*
*Demirəm şairəm, ya ilhamlıyam,*
*Yazıram, ellərim yadıma düşüb.*
*Birdir ürəyimiz, birdir könlümüz,*
*O yarla birgədir hər an qəlbimiz,*
*Əliyəm, günəştək gülür üzümüz,*
*Mələyim, dilbərim yadıma düşüb.*

**Əli ŞİRİNOV.**

## Ay ana

Ürəyimin parası,
Gözlərimin qarası,
Dərdlərimin çarası
Təkcə sənsən, ay ana.
* * *
Sən haqqımsan, sayımsan,
Gül-çiçəkli yayımsan,
İşıq saçan ayımsan,
Həyatımda, ay ana.
* * *
Sən bərəkət, ruzumsan,
Tükənməyən arzumsan,
Mənim dan ulduzumsan,
Parla daim, ay ana.
* * *
Sən necə də qəşəngsən,
İncilərdən incəsən,
Şəfəq saçan günəşsən,
İsitməni, ay ana.
* * *
Qeyrət-namus şöhrətim,
Sənsən əzəl söhbətim,
Bütün varım, dövlətim,
Sənə qurban, ay ana.

**Elçin ƏHMƏDOV.**

## Yadıma düşürsən

Sənsiz dolaşırkən bağçada-bağda,
O sənli günlərim yadıma düşür,
Üzüb iylədikcə gülü, çiçəyi,
Sənlə görüşlərim yadıma düşür.
Sanki nəğmə deyir hər çiçək, hər gül,
Yadıma düşürsən darıxır könül,
Quşlar da həvəslə ötəndə dil-dil,
O şən gülüşlərin yadıma düşür.
Ətrafı bürüyüb sarı xəzəllər,
Qəlbimi bağlayır hey qüssə, kədər,
Gözümə dikilir o qara gözlər,
Nazlı yerişlərin yadıma düşür.

**Rəvan SÜKUTİ.**